**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QAZAX JUZLARININ RUSİYA TƏRƏFİNDƏN İŞĞALI (XVIII – XIX ƏSRİN I YARISI)

İxtisas: 5502.01 – Ümumi tarix

Elm sahəsi: **Tarix**

İddiaçı: **Muhittin Hasan Hüseyin oğlu Kavık**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Bakı Dövlət Universitetinin “Türk xalqları tarixi” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, professor
**Nisbət Canməmməd qızı Mehdiyeva**

Rəsmi opponentlər: tarix elmləri doktoru, dosent
**Vasif Vaqif oğlu Qafarov**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Rövşən Qabil oğlu Hətəmov**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Samirə Əbülfət qızı İmanova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: tarix üzrə elmlər doktoru, professor
**İbrahim Xudaverdi oğlu Zeynalov**

________________________

Dissertasiya Şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Telman qızı Nəcəfova**

________________________

Elmi seminarın sədri: tarix üzrə elmlər doktoru, dosent
**Aidə Rəhim qızı Bağırova**

________________________

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku State University l.e.p.l.
BDU ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
“10” 10 2023

# I.DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Türk xalqları tarixinin öyrənilməsi məhdud xarakter daşıyır. Ona görə də, türkdilli xalqlardan olmaqla tarixdə xüsusi yeri olan qazaxların tarixinin meyarlara əsasən öyrənilməsi böyük elmi aktuallıq kəsb edir. Qazax xalqının tarixi haqqında qeyd olunan mərhələni onun təbii-tarixi inkişaf prosesinə çar Rusiyasının müdaxiləsi olaraq nəzərdən keçirmək zəruridir.

Dissertasiyanın aktuallığını və əhəmiyyətini üzə çıxaran məsələlərdən biri; qazax dövlətçiliyinin olmadığı, onlara dövlətçiliyi rusların öyrətdiyi fikrinə cavab olmasıdır. Qazax dövlətçiliyinin müzakirəsi, rusların dövlət səviyyəsində qazax dövlətçiliyinin olmadığı iddiası ilə yenidən başlamışdır. Rusların iddiası Qazaxıstanın birinci prezidenti N.Nazarbayev tərəfindən təkzib edilmişdir. N.Nazarbayev rusların 1480-ci ildə monqol-tatar hakimiyyətindən azad olduqlarını; qazaxların isə 1465-ci ildə öz dövlətlərini yaratdıqlarını bəyan etmişdir.

Qazax dövlətçiliyinin başlanğıc nöqtəsi 1465-ci ildə yaranan Qazax xanlığı qəbul edilir. Fəqət qazax dövlətçiliyi qədim türk xalqlarının dövlətçiliyinin davamıdır. Böyük çölün qazax xanları öz idarəçilik fəaliyyətlərində dövlətin əhalisi ilə bağlı olan zadəganların, batırların və biylərin tanınmış nümayəndələrinin daxil olduğu xan şuralarına arxalanırdılar. Beləliklə, cəmiyyət və dövlət işlərinin əsaslı və optimal idarə olunmasına nail olunurdu. Bundan əlavə, ildə təxminən bir dəfə çöldə demək olar ki, bütün tayfaların nümayəndələrinin, müsəlman ruhanilərinin, biylərin, batırların, ağsaqqalların daxil olduğu bir növ parlament adlandırıla bilən qurultay çağırılırdı. Qurultayda dövlət qarşısında yaranan ən mühüm problemlər müzakirə edilir, onlar haqqında müvafiq qərarlar qəbul edilir və ciddi şəkildə yerinə yetirilirdi. Qurultaylarda qanunvericilik normaları məsələləri də müzakirə edilirdi. İstər o vaxt, istərsə də indi hər bir ölkədə əhalinin olması hər bir dövlətin suverenliyinin əsasını təşkil etdiyindən, qazax xalqının mövcudluğu qazaxların suveren dövlətçiliyinin əsası hesab edilir. Müasir dövlətin suverenliyinin əsasını onun ərazisi və

sərhədləri təşkil edir. Qazax xanlığının ərazisi və sərhədləri var idi - region dövlətlərinin gözündə və ondan kənarda özünə güvənən suveren dövlət kimi görünürdü. Qazax xanlığının xanları qazaxların adət-ənənə hüququnu rəhbər tutmaqla yanaşı, həm də onları "Kaska Qasım xanın yolu" (Beş yargı, Beş qanun), "İşim xanın köhnə yolu" formasında sistemləşdirməyə çalışırdılar. Yol-törə, "Yeddi qanun" (Jeti Jargı) və qanun abidəsinə çevrilmiş digər sənədlər Qazax xanlığının güc strukturlarını-dövlətçiliyin əsasını təşkil edirdi. Bunun sayəsində qazaxların bu ilk suveren dövləti 400 ilə yaxın mövcud ola bildi. Qazax dövlətçiliyində; xanlığın nümayəndəli hakimiyyəti kimi qurultay və məclislərin, xanlığın icra və inzibati hakimiyyətini xan və sultanların, məhkəmə hakimiyyətinin daşıyıcısı isə biylərin (bəylər) olmasında ifadə olunurdu. Canıbəy və Kerey ilə Qasım, Haqnəzər, Təvəkkül, Teuke və Ablay kimi xanlar Qazax xanlığının qüdrətinin möhkəmlənməsinə mühüm töhfələr vermişlər. Qazax xanlığının kifayət qədər aydın hərbi təşkilatı sayəsində dövlətin həyat qabiliyyəti də qorunurdu. Qazax xanlığının hərbi təşkilatının əsasını milislər ilə yanaşı xanların telengitlərdən yaranan xüsusi qoruma dəstələri təşkil edirdi.

Qazaxların özünə məxsus juz idarəçilik təşkilatı çar Rusiyasının Qazaxıstanı işğalı və XIX əsrin I yarısında tətbiq etdiyi idarəçilik nizamları ilə siyasi əhəmiyyətini itirdi. Böyük juz qazaxlarının digər juzlardan fərqli olaraq rus hakimiyyətini qəbullarının daha sonra XIX əsrdə olmuşdu. Böyük juza köçürülən rus əhalidə də XX əsrə qədər çox deyildi. Bu vəziyyət Böyük juz qazaxlarının "qazax mədəniyyətinin daşıyıcısı" olduqlarını iddia etmələrinə səbəb oldu.[1] Fəqət rus əhali problemi ilə bağlı olaraq paytaxt Astanaya daşındı və siyasətdə Orta juzdan gələnlər fəal olmağa başladı. Bu səbəblərlə qazaxlarda juz mənsubiyyəti fikrinin hələ aktual olaraq qaldığını görürük.

Qazaxların müstəqilliyə gedən yolu uzun və çətin olmuşdur. Qazax xalqı əsrlər boyu müəyyən çətinliklərdən keçmişdir. Kalmık basqınları nəticəsində qazax ölkəsi öz siyasi birliyini təmin edə bilmədiyi üçün Rusiyanın hakimiyyəti altına keçməli oldu. Lakin

[1]Olcott, M.B. The Kazakhs / M.B.Olcott. − Stanford: Hoover İnstitutions Press, − 1995. − p. XVIII.

bu hakimiyyət bütün Qazax ölkəsinin çar Rusiyası qoşunları tərəfindən işğalı ilə nəticələndi. Müstəqilliyini və suverenliyini əziz tutan Qazax türkləri bu əsarətlə heç vaxt barışmayıb, azadlıq uğrunda 300-ə yaxın çıxış, qiyam, hərəkat və s. etmişlər.[2] Lakin bu hərəkatlar yatırılmışdır. Qazaxların çar Rusiyasının işğalı dövründə ən əhəmiyyətli azadlıq hərəkatı Kenesar Qasımovun hərəkatıdır. K.Qasımov 1837-1847-ci illər arasında 10 il çar Rusiyasını dayandıra bilmişdi.

XVIII əsrin sonu – XX əsrin əvvəlləri Birinci Dünya Müharibəsi illərinə qədər davam edən xalq hərəkatları qazaxları azadlıq uğrunda mübarizədən döndərə bilməmişdir. 1916-cı ildə Amangəldi İmanov başçılığındakı azadlıq hərəkatı bu vəziyyəti sübut edir. Amangəldi İmanov 1916-cı ilin axırından 1917-ci ilin əvvəllərinə qədər çar qoşunları ilə mübarizə aparmışdı. Onun hərəkatı müstəmləkə əleyhinə və azadlıq uğrunda mübarizə xarakteri daşıyırdı.[3]

Qazaxların 1720-ci illərdə cunqar hücumu nəticəsində məruz qaldığı çətinliklər, XX əsrin 20-30-cu illərində baş verən aclıqla eyni dərəcədə fəlakət idi.[4] Halbuki qazax türkləri əsrlər boyu yaşanan bu qədər çətinliyə sinə gərmiş və 1991-ci ildə müstəqilliyə qovuşmuşlar.

Məlumdur ki, Qazaxıstan digər postsovet ölkələri kimi çar Rusiyası, daha sonra Sovet dövlətinin işğalına məruz qaldı. Bu işğallar dövründə Qazaxıstanda iqtisadi, siyasi və etnik əlamətlər

---

[2]Hekimoğlu, V.S.F. 18. ve 19. Yüzyıllarda Kazak Türkleri-Rus İşgali ve Ulusal Bağımsızlık Mücadelesi / V.S.F. Hekimoğlu. − Ankara: Nobel Yayınları, − 2018.− s. 45; Mehdiyeva, N.C. From the history of struggle of national liberation of Kazakhs // Материалы Республиканской научно – практической конференции на тему «Актуальные вопросы истории Отечества в период независимости», посвященной 75-летию со дня рождения доктора исторических наук, профессора Куанышбека Сулейменовича Каражана. − Алматы: Казак университеті, − Әл-Фараби атындагы Казак Үлттык Университеті, − Казахстан, −2022, − с. 115.

[3]Mehdiyeva, N.C. Mərkəzi Asiya və Qazaxıstanda 1916-cı il üsyanı // Bakı Dövlət Universitetinin 90 illik yubileyi münasibətilə Tarix fakültəsi əməkdaşlarının elmi-praktik konfransının materialları. − Bakı: BUN, − 2009, − s. 300.

[4]Togan, Z.V. Bugünkü Türk İli (Türkistan) Ve Yakın Tarihi / Z.V.Togan. – İstanbul: Enderun yayınları, − 1981. − s. 170.

ciddi surətdə məhv edildi. Günümüzdə Qazaxıstanda yazılan dərs kitablarında Rusiyanın Qazaxıstanı işğal etdiyi mətn içində az da olsa yazılır, fəqət mündəricat qismində mütləq Qazaxıstanın Rusiyaya birləşdirilməsi (состав, присоединие) başlığı yazılır. Mövzu işlənərkən isə sırf siyasi mülahizələrə görə rusların yaratdığı sərhədlərdən kənara çıxılmır. Qazax alimləri Qazaxıstanda rus işğalı dövrünün mənbələri rus dilində Qazaxıstan Elmlər Akademiyası tərəfindən cəmlənməsinə baxmayaraq, birləşmə-tərkibinə qatılma anlayışına üstünlük verirlər. Qazaxlar davam edən daxili-xarici mübarizələrə qarşı rus köməyi tələb edirdilər. Ruslardan gözlənilən kömək müvəqqəti olmalı idi. Fəqət bu "kömək" müvəqqəti olmadı və bütün qazax torpaqlarının uzunsürən işğala məruz qalması ilə nəticələndi. Mövzunu işğal prosesi-anlayışı olaraq ələ almaq daha düzdür. Bu səbəblərlə mövzunun yenidən işlənməsi, qazax tarixinə yeni bir baxışı ortaya qoymaq üçün həmin mənbələrə və mövzuya aid ədəbiyyatı milli düşüncə prizmasından keçirmək vacibdir.

Dissertasiya mövzusuna aid ədəbiyyata nəzər salsaq Azərbaycan tarixşünaslığında bu barədə xüsusi tədqiqat əsəri olmasa da, Türk xalqları tarixi kimi ümumiləşdirici əsərlərdə mövzuya yer verilmişdir. Bu sırada N.C.Mehdiyeva, Q.İ.Bəşirov, R.V. Əhmədovun adlarını çəkmək olar. N.C.Mehdiyevanın Qazaxıstanın ictimai-siyasi həyatına aid məqalələri də diqqətəlayiqdir.

N.C.Mehdiyevanın "Türk xalqlarının tarixi – Yeni dövr / XIX – XX əsrin əvvəlləri"[5] adlı əsərində qazax juzlarının rus hakimiyyətini qəbulu, rusların qazax sərhədində yaratdığı şəhərlər və işğal prosesi haqqında məlumat vermişdir. N.C.Mehdiyeva öz məqalələrində[6] Bukey Ordasının yaranması və siyasi həyatı,

---

[5]Mehdiyeva, N.C. Türk xalqlarının tarixi. Yeni dövr /XIX – XX əsrin əvvəlləri/. Ali məktəblər üçün dərslik / N.C.Mehdiyeva. − Bakı: Adiloğlu, − 2010. − 352 s.

[6]Mehdiyeva, N.C. Bukey Ordası // Bakı: Tarix və onun problemləri, − 2012. № 1, − s. 11-16; Mehdiyeva, N.C. From the history of struggle of national liberation of Kazakhs // Материалы Республиканской научно – практической конференции на тему «Актуальные вопросы истории Отечества в период независимости», посвященной 75-летию со дня рождения доктора исторических наук, профессора Куанышбека Сулейменовича Каражана. − Алматы: Казак

qazaxların xalq hərəkatları haqqında məlumat verərək qeyd etdiyimiz mövzuların xüsusiyyətlərini təhlil edir.

Q.İ.Bəşirov "Türk xalqları tarixi XIII-XX əsrin əvvəlləri"[7] əsərində qazaxların xalq kimi formalaşmasında XIX əsrə qədər tarixini tədqiq etmişdir. Həmçinin müəllif qazaxların ictimai, siyasi və iqtisadi strukturlarını təhlil edir.

R.V.Əhmədovun "Türk xalqlarının tarixi (XIII – XX əsrin əvvəlləri)"[8] əsərində mövzu ilə bağlı çoxlu məlumatlar verilir. Müəllif Qazax xanlığı, qazaxların rus hakimiyyətini qəbulu və işğal prosesini, işğalın nəticələrini, çar Rusiyasının Qazaxıstanda tətbiq etdiyi idarəçilik aparatları və XIX əsrin sonunadək azadlıq hərəkatları haqqında məlumat vermişdir.

Türk tarixşünaslığında çar Rusiyasının Qazaxıstanı işğal dövrü haqqında müəyyən ədəbiyyat mövcuddur. O.Doğan "Kazak Hanlığı'nın çarlık Rusyası ve cungarlarla ilişkileri (Rus ve Kazak kaynaklarına göre)"[9] əsərində, qazaxların rus hakimiyyətini qəbulu və ardından işğala məruz qalmasının banisi kimi göstərilən Əbülxeyr xanı, özündən əvvəl xan çıxaran nəsildən gəlmədiyi üçün onun mübarizəsinə haqq qazandırır. Müəllif juzlar yaranması mövzusunda noqay elçilik hesabatlarına əsaslanaraq "juz" adının ilk dəfə 1569-cu ildə qeyd olunduğunu ortaya qoyaraq 1616-cı ildə qəbul edilən ilk juz qeydini daha erkən tarixə aid edir.

F.Ünalın tədqiqat əsəri "Sultan Kenesarı – Rus emperyalizmine karşı stepte büyük başkaldırı"[10] xüsusi olaraq Kenesar Qasımovun hərəkatına həsr edilmişdir. Müəllif əsərində, qazax tarixini qısaca tədqiq edərək sonuncu Qazax xanı Kenesar

---

университеті, − Әл-Фараби атындағы Казак Ұлттык Университеті, − Казахстан, −2022, − с. 108-117.

[7]Bəşirov, Q.İ. Türk xalqları tarixi XIII – XX əsrin əvvəlləri / Q.İ.Bəşirov. − Bakı: ADPU nəşriyyatı, − 2018. − 327 s.

[8]Əhmədov, R.V. Türk xalqlarının tarixi (XIII – XX əsrin əvvəlləri) / R.V.Əhmədov.- Sumqayıt: SDU nəşriyyatı, − 2013. − 286 s.

[9]Doğan, O. Kazak Hanlığı'nın Çarlık Rusyası ve Cungarlarla İlişkileri (Rus ve Kazak Kaynaklarına Göre) / O.Doğan. − Ankara: Türk Tarih Kurumu yayınları, − 2021.- 255 s.

[10]Ünal, F. Sultan Kenesarı – Rus Emperyalizmine Karşı Stepte Büyük Başkaldırı / F.Ünal. − İstanbul: İlgi kültür sanat yayıncılık, − 2010. − 261 s.

Qasımovun hərəkatını ətraflı təhlil etmişdir. Müəllif, Kenesarın fəaliyyətlərini addım-addım təqib edərək onun rus qubernatorları ilə münasibətlərini tədqiq edir. O, Kenesarın Orenburq qubernatoru L.A.Perovski ilə yaxşı əlaqələri nəticəsində onun xanlığı yaratma fəaliyyətini davam etdiyini vurğulayır. Müəllif əsərinin nəticə qismində rus işğalçılığına qarşı mübarizə aparan Kenesarı öldürən qırğızların da özünün də türk və müsəlman olmasına diqqət yetirir.

Türk tarixşünaslığında qazax tarixi araşdırmaları üçün O. Yorulmazın "Başlangıcından hanlığın feshine kadar Kazak türkleri ile Çarlık Rusyası arasındaki siyasi ilişkiler"[11] əsəri xüsusi əhəmiyyət kəsb edir. Əsərdə qazax-kalmık və qazax-rus əlaqələri arxiv materiallarından istifadə edilərək 1824-cü ilə qədər xronoloji olaraq ortaya qoyulur. Müəllif, xüsusilə, Kiçik juz xanı Əbülxeyr ilə rus elçisi A.İ.Tevkelevin qazaxlar, başqırdlar, qaraqalpaqlar üzərindəki siyasi oyunları tədqiq edərək qazax xalqının rus hakimiyyətini tələb etmədiyini müdafiə edir. Müəllif qazaxların rus köməyinə ehtiyac içində qalmalarına səbəb olan kalmık müharibələrinə diqqət yetirir. Həmçinin, müəllif, rusların "köçəri xalqlar" siyasəti ilə qoşun yürütmədən qalibiyyət qazandıqlarını vurğulayır. Çar Rusiyası bu siyasət ilə köçəri xalqların işğala hazırlaşan ruslara qarşı deyil, öz aralarında müharibə etmələrinə səbəb olduğunu bildirir.

M.Alpargu "Yeniçağda kazak türkleri"[12] adlı tədqiqat əsərində xüsusi olaraq qazaxların mərkəzçi xanlıq dövrünü tədqiq edir. Müəllif əsərində qazax-kalmık ara müharibələrinə diqqət yetirərək əhali baxımından daha çox olan qazaxların məğlub olmasında onların siyasi pərakəndəliyin təsirini vurğulayır.

Qazaxıstan haqqında tədqiqat aparan M.Saray, "Kazak türkləri tarixi kazakların uyanışı"[13] əsəri Qazaxıstanın iqlimi, coğrafiyası və tarixi haqqında geniş məlumat verir. Müəllifin 1991-ci ildə yaranan

[11]Yorulmaz, O. Başlangıcından Hanlığın Feshine Kadar Kazak Türkleri ile Çarlık Rusyası Arasındaki Siyasi İlişkiler / O.Yorulmaz. − Ankara: Türk Tarih Kurumu yayınları, − 2013. − 287 s.

[12]Alpargu, M. Yeniçağda Kazak Türkleri / M.Alpargu. − Ankara: 72 ofset tesisleri, − 1996. − 92 s.

[13]Saray, M. Kazak Türkleri Tarihi Kazakların Uyanışı / M.Saray. − İstanbul: Nesil matbaacılık ve yayıncılık, − 1993. − 190 s.

türk respublikalarını tədqiq etdiyi "Yeni Türk cumhuriyetleri tarihi" [76][14] adlı həcmli əsərinin Qazaxıstan fəslində çar Rusiyası - qazax əlaqələrini və onların rus işğalına məruz qalmalarını təhlil edir.

Z.V.Toganın "Bugünkü Türkili (Türkistan) ve yakın tarihi"[15] adlı əsərində qazaxların özbək hakimiyyətini qəbul etməyib onları tərk etmə prosesini, qazax xalqının formalaşmasını, kalmıklar və ruslarla ilə əlaqələrini tədqiq etmişdir. Müəllif başqırd olması səbəbi ilə qazax-başqırd əlaqələrini çar Rusiyasının işğalçılıq siyasəti baxımından təhlil etmişdir.

Qazaxıstan Elmlər Akademiyasının qazax tarixi haqqında ümumi məlumat verən məqalələr toplusu[16] ingilis dilində çap edilmiş, ardından türk dilinə tərcümə edilmişdir. Məqalələrdə qazax tarixinin əsas hadisələri qısa, ancaq sistemli olaraq izah edilir.

Mövzuya aid rusdilli əsərlərdən A.İ.Levşinin "Описание Киргиз-Казачьих, или Киргиз-Кайсацких, орд и степей"[17] adlı əsəri xüsusi əhəmiyyət kəsb edir. O Qazaxıstan ərazisini gəzərək və dövrün əhəmiyyətli arxivi olan Orenburq arxivindən istifadə edərək, qazaxların coğrafiyasının, ənənələrinin, tarixinin geniş mənzərəsini təqdim etmişdir.

1731-ci ildə rus elçisi kimi qazax torpaqlarına gedən A.İ.Tevkelev "Разные бумаги Генерал-Майора Тевкелеев об Оренбургском крае и о киргиз-кайсацких ордах 1762 год." [146][18] başlıqlı hesabatında qazax-rus əlaqələri haqqında əhəmiyyətli məlumatlar qeyd etmişdir. A.İ.Tevkelev, Əbülxeyr xan dövrü qazax-

---

[14]Saray, M. Yeni Türk Cumhuriyetleri Tarihi / M.Saray. − Ankara: Türk Tarih Kurumu yayınları, −2014. −522 s.

[15]Togan, Z.V. Bugünkü Türk İli (Türkistan) Ve Yakın Tarihi / Z.V.Togan. – İstanbul: Enderun yayınları, − 1981. − 695 s.

[16]Kumekov, B. Kazak Devletinin Oluşumu // Kazakistan Tarihi Makaleleri, − Ankara: Türk Tarih Kurumu yayınları, − 2007. − s. 54 – 62; Yerofeeva, İ. Rus İmparatorluğu Yönetiminde Kazakistan // Kazakistan Tarihi Makaleleri, − Ankara: Türk Tarih Kurumu yayınları, − 2007. − s. 73 – 83.

[17]Левшин, А. И. Описание киргиз-казачьих, или киргиз-кайсацких, орд и степей / А.И.Левшин. − Алматы: Санат, − 1996. − 656 с.

[18]Ханыков, Я.В. Разные бумаги Генерал-Майора Тевкелева об Оренбургском крае и о киргиз-кайсацких ордах 1762 год. // Временник императорского общества истории и древностей российских [25 Книги]. − Москва: В Университетской типографии, − Кн. 13-Часть 3, − 1852. − с. 15-19.

rus münasibətlərində şəxsi iştirakı olması səbəbi ilə rusların şərq siyasətinin yaranmasından Əbülxeyr-Orenburq qubernatoru İ.İ.Neplyuyev əlaqələrinə qədər geniş məlumat vermişdir.

Sovet dövründə Qazaxıstan Elmlər Akademiyası rus arxivlərindəki qazaxlarla əlaqəli materialları üzə çıxarmışdır.[19] Bu materiallar ilə qazaxların siyasi vəziyyətinin mənzərəsi üzə çıxır. Rusların tək qazax xanları ilə deyil, aşağı dərəcəli idarəçilərlə də əlaqədə olduğunu görürük. Belə bir siyasət rusların xanlıq idarəçiliyini yoxa çıxarmaq istəyi ilə bağlı idi.

Qazaxıstan Elmlər Akademiyasının tədqiqatlarından olan "История Казахской ССР с древнейших времен до наших дней"[20] əsəri, qazaxların tarixini qədim dövrlərdən 1917-ci ilə qədər tədqiq edir. Tədqiqat qazaxların rus hakimiyyətini qəbulu və ardından işğala məruz qalmasında qazax idarəçilərinin xüsusi rolunu izah edir.

Mövzu ilə bağlı N.Apollova "Присоединение казахстана к россии"[21] adlı əsərində qazaxların rus hakimiyyətini qəbulunda kalmık müharibələri ilə onlar arasında yaranan torpaq məsələsinə diqqət yetirərək əmin – amanlıq axtaran qazaxların ruslara meyl etdiyini müdafiə edir. Sovet ideologiyasına görə yazılan bu əsər qazaxların tarixini təhrif edən əsərlər sırasındadır.

Tədqiqatçı S.Zimanov "Россия и Букеевкое ханство"[22] və "Политический строй Казахстана первой подовины XIX века и Букеевское ханство"[23] əsərlərində Bukey Ordasını tədqiq edir. Rusiyayönümlü tədqiqat aparan müəllif, rusların Bukey Ordası üzərindəki məqsədini "öz hakimiyyətində inkişaf etmiş-mərkəzləşmiş

---

[19]Казахско-Русские отношения в XVI–XVIII веках (Сборник документов и материалов). − Алма-Ата: АН Каз. ССР, − 1961. – 746 с.; Казахско-Русские отношения в XVIII–XIX веках (1771–1867) (Сборник документов и материалов). − Алма-Ата: АН Каз. ССР, − 1964. − 746с.

[20]История Казахской ССР с древнейших времен до наших дней / От. Ред. И.Димитрова, − Алматы: АН Каз., − 2011. − 670 с.

[21]Аполлова, Н. Присоединение Казахстана к России / Н.Аполлова. − Алма-Ата: АН Каз. ССР, − 1948. − 248 с.

[22]Зиманов, С. Россия и Букеевкое ханство / С.Зиманов. − Алма-Ата: А.Н.Каз. ССР, − 1982. − 172 с.;

[23]Зиманов, С. Политический строй Казахстана первой половины XIX века и Букеевское ханство / С.Зиманов. − Алматы: Арис, − 2009. − 496 с.

məhsuldar cəmiyyət yaratmaq" şəklində qeyd edir[24]. Halbuki ruslar qazax torpaqlarını bütünlüklə işğal etmək istəyirdi.

Qazax tədqiqatçılar sırasında olan G.V.Kan "История Казахстана"[25] adlı əsərində Teuke xanın qazaxları bir yerdə tutmaq üçün tətbiq etdiyi "Yeddi qanun" haqqında geniş məlumat verir. Müəllif, Yeddi qanunun qazaxların ictimai-siyasi həyatını nizamlayan geniş ictimai, idarəçilik və hüquq islahat nümunəsi olduğuna diqqət yetirir.

Müasir dövrün əhəmiyyətli qazax tədqiqatçıları arasında olan İ.V.Yerofeyeva "Хан Аблхаир: Полководец, Правитель, Политики"[26] əsərində qazaxların rus hakimiyyətini qəbul etməsi məsələsinin kalmık müharibələri səbəbi ilə dağıdılan ictimai-siyasi strukturu bərpa edə biləcək idarəçilərin mövcud olmaması ilə bağlı olduğuna diqqət yetirir.

Mövzuya aid ingilisdilli ədəbiyyata gəlincə, M.B.Olcott "The Kazakh"[27] adlı əsəri ilə qərbdə qazax tarixini cəm halda tədqiq edən ilk ingilis dilli tədqiqatçıdır. Olcott əsərində Qazax xanlığının yüksəlişini və işğala məruz qalmasını, rus inqilabları və sovet dövrü tarixini təhlil edir. Yenə J.Nodanın "The Kazakhs Khanates between the Russian and Qing Empires: Central Eurasian international relations during the eighteenth and nineteenth centuries"[28] adlı ingilis dilli əsəri qazaxların tarixini və Rusiya və Çin ilə olan əlaqələrini nəzərdən keçirmək baxımından yararlıdır.

Qazaxların rus hakimiyyətini qəbulu kalmık müharibələri səbəbi ilə siyasi pərakəndəliyin yaranması idi. Qazax-kalmık əlaqələrində M.İankifom "Исторические обозрьние Ойратов или Калмыковъ с

---

[24]Зиманов, С. Россия и Букеевкое ханство / С.Зиманов. − Алма-Ата: АН Каз. ССР, − 1982. − с. 33.

[25]Кан, Г.В. История Казахстана / Г.В.Кан. − Алматы: Алматыкітап, − 2011. − 312 с.

[26]Ерофеева, И.В. Хан Абулхаир: полководец, правитель, политик / И.В.Ерофеева. − Алматы: Дайк-Пресс, − 2007. − 484 с.

[27]Olcott, M.B. The Kazakhs / M.B.Olcott. − Stanford: Hoover İnstitutions Press, − 1995. − 298 p.

[28]Noda, J. The Kazakhs Khanates Between The Russian And Qing Empires: Central Eurasian İnternational Relations During The Eighteenth And Nineteenth Centuries / J.Noda. − Boston: Brill, − 2016. − 370 p.

XV столетия до настоящаго времени"[29] adlı əsərində müharibələrdə qazaxların məğlub olmalarının səbəbini onların siyasi pərakəndəliyinin olması ilə izah edir. Həmçinin, qazaxların məğlub olmasında kalmıkların odlu silahlardan istifadə etməsinin əhəmiyyətini ifadə edir.

Qazax-kalmık əlaqələrinin öyrənilməsində türk tarixşünaslığında O.Berber və E.Kalanın əsərləri əhəmiyyətlidir. O.Berberin **"**Kalmuk istilası ve türk dünyasına etkileri"[30] adlı əsəri qazax-kalmık əlaqələrinin tək qazaxlar üçün deyil, bütün türk dünyasına təsirini təhlil edir.

E. Kalanın "Cungar Hanlığı'nın siyasi tarihi"[31] əsərində cungar xanlarının qazaxlarla bağlı siyasəti haqqında geniş məlumat verir. Qazax və cungar qoşunları arasındakı fərqləri qeyd edərək cungarların odlu silahdan istifadə etməsinin əhəmiyyətinə diqqət yetirir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini qazaxların çar Rusiyasının işğalına məruz qalmasının səbəblərini və nəticələrini müəyyən edib üzə çıxarmaq təşkil edir. Bununla yanaşı, tədqiqatın predmeti isə XVIII əsr və XIX əsrin I yarısında qazax torpaqlarında rus işğalı prosesini ortaya qoymaqdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işində qarşıya qoyulan əsas məqsəd çar Rusiyasının Qazaxıstanı işğal dövrünün tədqiq edilməsidir. Bu məqsədə nail olmaq üçün dissertasiyada aşağıdakı vəzifələr müəyyən edilmiş və yerinə yetirilmişdir:

- Qazaxların həyatını dəyişdirən çar Rusiyasının işğal prosesi dövründə ictimai-siyasi vəziyyəti;
- XVIII əsrin 30-cu illərinə qədər qazax-rus münasibətləri;
- Kiçik juz xanı Əbülxeyr xanın fəaliyyəti nəticəsində qazaxların rus müdaxilələrinə məruz qalması və nəticədə qazaxların tədricən rus hakimiyyətini qəbul etməsi;
- Qazax torpaqlarının çar Rusiyası tərəfindən işğal edilməsi və

---

[29]Иакинфомь, М. Исторические обозрение Ойратов или Калмыков с XV столетия до настоящаго времени / М.Ианкифом. − Санктпетербург: Мини¬стерство внутренних дел, − 1854. − 255 с.

[30]Berber, O. Kalmuk İstilası Ve Türk Dünyasına Etkileri / O.Berber. − Ankara: Türk Tarih Kurumu yayınları, − 2021.− 204 s.

[31]Kalan, E. Cungar Hanlığı'nın Siyasi Tarihi / E.Kalan. − Ankara: Türk Tarih Kuru¬mu yayınları, − 2008. − 136 s.

rusların inzibati – idarəçilik tənzimləri;

- Qazaxların rusların hakimiyyətinə qarşı milli-azadlıq hərəkatlarının başlaması və xüsusiyyətlərinin ortaya qoyulmasıdır.

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji əsasını tarixi, elmi-ictimai materialların təhlilinə elmi yanaşmaq prinsipi təşkil edir. Mövzu üzərində işləyərkən onun tədqiqinə həsr olunmuş mənbələrə, pedaqoji-tarixi materiallara tənqidi yanaşma, müqayisəli təhlil aparma əsas meyar olmuşdur. Dissertasiyada XVIII əsr və XIX əsrin I yarısı aralığında mövzuya aid tarixi hadisə və proseslər xronoloji və məntiqi ardıcıllıqla izlənilmiş, öyrənilmiş və araşdırılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində müdafiəyə çıxarılan əsas müddəaları aşağıdakı kimi qruplaşdırmaq olar:

- Qazaxlar 1465-ci ildə öz dövlətlərini yaratmışlar və XVIII əsrin əvvəllərinə qədər mərkəzçi Qazax xanlığını qoruyub saxlamışlar;
- Qazaxların özünəməxsus idarəçilik aparatı olan juzlar XVIII əsrin 30-cu illərinə qədər geniş Qazax xanlığı torpaqlarının idarəçiliyini asanlaşdırmışdır;
- Qazaxlardakı juz idarəçilik təşkilatı mərkəzçi xanlıq dövründə də siyasi pərakəndəlik riski yaradırdı. Bu vəziyyət qazax xanlarının xalqı bir yerdə tutmaq üçün çox əmək sərf etmələrinə səbəb olurdu;
- Qazaxların siyasi birliyini dağıdan əsas səbəb XVIII əsrin əvvəllərindəki kalmık müharibələridir;
- Kalmık müharibələri ilə dağılan qazax siyasi birliyini juz xanlarının müstəqillik elan etmələri ilə yoxa çıxdı. Bu vəziyyət Qazaxıstanda Kiçik juz xanı Əbülxeyr xan ilə başlayan çar Rusiyasının işğalı prosesini başlatdı;
- Qazax juz xanları bir-birinə qarşı siyasi dayaq yaratmaq üçün çar Rusiyasının hakimiyyətini qəbul edirdilər;
- Juz xanlarının müstəqilliyini elan etmələri ilə qazaxlarda "Ali Qazax Xanı" məsələsi yoxa çıxdı;
- Çar Rusiyası XIX əsrin 20-ci illərində qazax torpaqlarında ayrı-ayrı inzibati idarəçilik nizamlarını tətbiq etmişdir;
- Qazax idarəçiləri birləşərək kalmıklara qarşı çətin mübarizə etdilər, fəqət eyni mübarizəni ruslara qarşı aparmadılar;
- Qazaxıstandakı rus işğalları və müstəmləkəçilik siyasətinə

qarşı qazaxların milli-azadlıq hərəkatlarıdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin hazırlanmasında keçmiş və son dövrlərdə nəşr olunmuş tədqiqat əsərlərindən istifadə olunmuş, eyni zamanda bir çox fərqli mənbələrdən istifadə edilmiş və müqayisə olunaraq obyektiv tədqiqat işi hazırlanmışdır.

Dissertasiya işində I Pyotr ilə başlayan Rusiyanın şərq istiqamətindəki işğalçılıq siyasətində qazaxların əhəmiyyəti ortaya qoyulmuşdur. Çar Rusiyasının Qazaxıstanı işğal prosesi bir əsrdən çox davam etmişdir. Dissertasiya işinin elmi yeniliyini aşağıdaki kimi xülasə etmək olar:

- Qazaxların iqtisadi, ictimai və siyasi vəziyyətinin 1723-cü ildən necə dəyişdiyi araşdırılmışdır. 1723-cü ildəki Böyük fəlakət (qazax-cunqar müharibəsi) ilə qazax juzlarının yerli azadlığı onların bütünü ilə müstəqil olmalarına və həm çar Rusiyasının hakimiyyətinin qəbul edilməsinə, həm də daxili mübarizələrin şiddətlənməsinə səbəb oldu.
- Çar Rusiyasının "Şərq siyasəti" əsasında qazaxların yeri və əhəmiyyətinə diqqət yetirilir. Çar Rusiyasının Şərq siyasətini formalaşdıran amillər izah edilmişdir.
- 1731-ci ildən başlayan juz xanlarının rus hakimiyyətini qəbul etmələrindəki əsas səbəbin bir-birinə qarşı siyasi dayaq yaratmaq olduğu nəticəsi çıxarılaraq, onların ayrı-ayrılıqda fəaliyyətləri araşdırılmışdır. Bu nöqtədə Kiçik juz xanı Əbülxeyr nüfuzu çərçivəsində rusların xeyrinə fəaliyyətləri; Orta juz xanı Səməkənin hakimiyyət mübarizəsində Əbülxeyr xanın ruslarla yaxınlaşmasına mane olmaq istiqamətində fəaliyyətləri ortaya qoyulur. Böyük juzun çar Rusiyası ilə münasibətləri şərq qonşuları olan cunqarlar və çinlilərin hərbi-siyasi fəaliyyətlərinə bağlı olması izah edilir.
- Çar Rusiyasının qazax torpaqlarında tətbiq etdiyi 1822-1824-cü illərdəki inzibatı idarəçilik sistemi ilə Orta juzda dairə, qəza və aul idarəçiliyi; Kiçik juzda üçə bölüb, iqtisadi xətlər idarəçiliyi yaradaraq qazaxların faktiki ayrılığını davam etdirmişdir.
- Çar Rusiyasının Qazaxıstanı işğalının həm qazaxlar, həm də Mərkəzi Asiya üçün nəticələri izah edilir.
- Qazaxlar çar Rusiyasının işğalına qarşı çoxlu azadlıq hərəkatı aparmışlar. Qazaxların azadlıq hərəkatlarının uğursuzluqla başa

çatmasında onların birlik halında hərəkət etməməsi və xarici kömək tapa bilməməsi təhlil edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində əldə edilmiş elmi nəticələr qazax juzlarının çar Rusiyası tərəfindən işğalı dövrü tədqiq olunması üçün önəmli əhəmiyyətə malikdir. Dissertasiya işinin əsas müddəalarından dərs vəsaitlərinin hazırlanmasında, problemin müxtəlif tərəflərinə dair gələcək elmi-tədqiqat işlərinin aparılmasında və siyasi tarixə dair ümumiləşdirilmiş əsərlərin hazırlanmasında, ali təhsil müəssisələrində mühazirələrin oxunmasında və seminar məşğələlərinin keçirilməsində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Türk xalqları tarixi kafedrasında yerinə yetirilmişdir. İşin əsas müddəaları haqqında Azərbaycan və Ukraynada keçirilmiş beynəlxalq simpozium və konfranslarda məruzələr edilmişdir. Bu dövr ərzində tərəfimizdən 7 elmi məqalə, 2 tezis və 1 konfrans materialı nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Türk xalqları tarixi kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, səkkiz yarımfəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələr hissələrindən ibarətdir. Tədqiqat işinin girişi 20.826 işarədən ibarətdir. Birinci fəsil "Rus işğalına qədər qazaxların ictimai – siyasi vəziyyəti" adlanır, üç yarımfəsildən ibarətdir və 74.486 işarə həcmindədir. "Qazax juzları və onların rus işğalı altına alınması" adlanan ikinci fəsil üç yarımfəsildən ibarətdir və 92.546 işarə həcmindədir. Dissertasiya işinin "Juzlardakı milli-azadlıq hərəkatları" adlanan üçüncü fəsli iki yarım fəslə bölünür və 66.283 işarə həcmindədir. Nəticə hissəsində əldə olunan elmi müddəalar öz əksini tapmışdır və 8.699 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi isə 262.840 işarədən ibarətdir.

## II.DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**“Giriş”**də mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, strukturu və həcmi öz əksini tapmışdır.

Dissertasiya işinin I fəslinin əsas başlığı **“Rus işğalına qədər qazaxların ictimai – siyasi vəziyyəti”**-dir. I fəsildə qazaxların xalq kimi formalaşması və tayfaları, qazax adının mənası, qazax-kalmık müharibələri, həmçinin qazaxların zəif olan siyasi birliyinin kalmık müharibələri səbəbi ilə yoxa çıxması, rusların güclənməsi və ətrafındakı türk xalqlarına qarşı işğalçı qüvvə halına gəlməsi, qazax-rus siyasi əlaqələrinin xronoloji tarixi qeyd edilmişdir. Bu fəsildə üç yarımfəsil vardır:

I fəslin I yarımfəsli **“Qazaxların daxili vəziyyəti”** adlanır. Qızıl Ordanın süqutundan sonra Qazaxıstan torpaqlarında yaranan Özbək xanlığının hakimiyyətini qəbul etməyən qruplar və tayfalar daxili mübarizələrə səbəb olurdu. Özbək xanı Əbülxeyrin hakimiyyətini qəbul etməyənlərin başında qazaxlar dayanırdı. Qazaxlar Özbək xanlığının daxili mübarizələrindən qaçıb, Yeddi Suya (Semireçye) köçməsi ilə Qazax xanlığını yaratdılar (1465).[32]

Qazaxlar haqqında əhəmiyyətli mövzu juzların yaranmasıdır. Juzların nə zaman yarandığı haqqında dəqiq məlumat olmamasına baxmayaraq, bir çox tədqiqatçının onların yaranması haqqında fikirləri vardır.[33] Qazax juzları iqtisadi fəaliyyət fərqliliyi, xalqın yerli azadlığa əhəmiyyət verməsi və zamanla qazax xanları tərəfindən hüquqi status verilməsi ilə yarandı.

Qazax xanlığını yaradanlar Canıbəy və Kerey idi. Canıbəy və Kerey özlərinə bağlı kiçik qrupla Yeddi Suya etdikləri köç hərəkatı ilə öz daxili əmin-amanlıqlarını yaratdılar. Beləcə onların hakimiyyət

[32]Кан, Г.В. История Казахстана / Г.В.Кан. − Алматы: Алматыкітап, − 2011. − с. 76.
[33]Moidabayeva, D. Kazaklardaki Cüzlük Sistemi ve Tarihçesi Üzerine Bir İnceleme // − Bişkek: Bilig, − 2002. № 21, − s. 28-35; Sahipova F.B. Kazakların Boy Örgütlenmesi // – Ankara: Modern Türklük Araştırmaları Dergisi, − 2007. № 3, − s. 182-186.

ərazisi Özbək xanlığında yaşanan daxili mübarizələrdən qaçan hər kəsin köç etdiyi əraziyə çevrildi. Qazax xanlığını yaradan Canıbəy və Kerey qərbə doğru irəliləyərək cənuba köçən özbəklərin qalıqlarını özlərinə tabe etdilər. Qazax xanlığı Qasım xanın hakimiyyəti dövründə bütün Dəşti-Qıpçağın ən güclü dövləti halına gəldi.[34] Qazax xanlığı Qasım, Haqnəzər, Təvəkkül və Teuke kimi nüfuzlu xanlar dövlərində daxili əmin-amanlığını qorudu. Fəqət hakimiyyəti bütün xalq tərəfindən qəbul edilməyən xanların dövrlərində isə daxili mübarizələr yaşanırdı.[35]

I fəslin II yarımfəsli **"Qazax – kalmık müharibələri"** adlanır. Yarımfəsildə monqol mənşəli kalmıkların siyasi qüvvə kimi formalaşıb, başda qazaxlar olmaq üzrə bütün Türküstana təsir edən qərb yürüşləri qeyd edilir. Kalmık tayfaları olan torqootlar və dörvöödlər, torqoot başçısı Xo-Urluq liderliyində əvvəl Sibirə, daha sonra İdil ətrafı ərazilərə etdikləri köç hərəkatı qazaxları çətin vəziyyətə saldı.[36] Yaranan İdil kalmık xanlığı və şərqdə 1635-ci ildə yerində qalan kalmıkların yaratdığı Cunqar xanlığı qazaxlar üçün həyatda qalma müharibələri etmələri nəticəsinə gətirib çıxardı. Xüsusilə 1723-cü il Cunqar hücumu qazax tarixinə "Aqdaban şubırındı" (Ayaq dabanları soyuluncağa qədər qaçma) adı keçdi. 1723-cü il müharibələri qazaxların bütün iqtisadi, ictimai və siyasi təşkilatını məhv etdi.[37] Çətin vəziyyətdə qalan qazaxlar 1726-cı ildə Ordabaşı qurultayını təşkil etdilər. Qurultayda kalmıklara qarşı bütün qoşunları birləşdirmə qərarına gəldilər.[38] Qazax qoşunu 1726-cı ildə Bulantıda və 1729-cu ildə Anrakayda cunqarları məğlub etdi.

---

[34]Duğlat, M.H. Tarih-i Reşidi / M.H. Duğlat. – Tərcümə edən: Osman Karatay, − İstanbul: Selenge yayınları, − 2006. − s. 448.

[35]Tamir, F. Kazak Hanlığı // Türkler [21 cilddə]. − Ankara: Yeni Türkiye Yayınları, − C. VIII, − 2002. − s. 1131.

[36]Yorulmaz O. Başlanğıcından Hanlığın Feshine Kadar Kazak Türkleri ile Çarlık Rusyası Arasındaki Siyasi İlişkiler / O. Yorulmaz. − Ankara: Türk Tarih Kurumu yayınları, − 2013. − s. 29.

[37]Ünal F. Moğol-Kazak Mücadeleleri Aktaban Şubırındı Hadisesi // – İstanbul: Türk Dünyası Tarih ve Kültür Dergisi, – 2000. – № 160, – s. 18; Olcott M.B. The Kazakhs / M.B.Olcott. − Stanford: Hoover instutions press, − 1995, − p. 26.

[38]Kavık M. XVIII. Yüzyılda Kazak-Kalmuk Mücadeleleri // – Isparta: Genel Türk Tarihi Araştırmaları, – 2020. № 3, s. 80.

Cunqarlar məğlubiyyətlərinə baxmayaraq, öz qüvvələrini qoruyub saxladı.[39] Güclü Cunqar xanlığı hakimiyyət mübarizələri nəticəsində Çinin işğalına məruz qalaraq, 1758 – ci ildə tarix səhnəsindən silindi.

1771-ci ildə Rusiyanın siyasi-ictimai təzyiqindən bezən İdil kalmıkları ana vətənləri olan Cunqariyaya (Qərbi Monqolustan) köç hərəkatı qərarına gəldilər. Kalmıklar Cunqariyaya çata bilmək üçün qazax torpaqlarından keçməli idi. Kalmıklar 1771-ci ildəki köç hərəkatı sırasında qazaxların çoxlu hücumuna məruz qaldılar.[40] Kalmıkların ana vətəni Cunqariya Çin işğalında idi və qərbdən gələn yeni kalmık qrupları ümidsiz qalaraq Çin hakimiyyətini qəbul etdilər.[41]

Kalmıkların hərbi-siyasi fəaliyyətinin ümumi nəticəsi: İdil-Yayıq ərazilərinə ruslar və rus kazaklarının yerləşməsini təmin etmələri, qazaxları çətin vəziyyətdə buraxaraq, rus işğalı dövrünün başlamasına səbəb olmaları, kalmık hərəkatları ilə rus sərhəd əraziləri və Mərkəzi Asiyaya köç edən qazaxlar səbəbi ilə iqtisadi böhranı yaratması idi. Kalmıkların fəaliyyətinin özləri üçün nəticəsi isə hərbi-siyasi mövcudiyyətin yoxa çıxması oldu.

I fəslin sonuncu yarımfəsli **“Qazax – rus əlaqələri”** adlanır. Yarımfəsildə rusların Qızıl Ordadan azad olması və ətrafındakı türk ölkələrinə qarşı işğalçılıq fəaliyyətlərinə başlaması qeyd edilmişdir.

Qazax – rus siyasi əlaqələrinin başlaması Təvəkkül xan (1582-1598) dövründə oldu. Qazax-rus siyasi əlaqələrinin bu dövrdə başlamasına rusların Sibir xanlığını işğal etməsi təsir etdi. Arxiv materiallarından tapılan ilk qazax-rus siyasi əlaqəsi 1594-cü ildə Təvəkkül xanın Moskvada girov tutulan qardaşı oğlu Uraz Məhəmmədin buraxılmasını təmin etmək üçün yarandı. Siyasi əlaqələrə baxmayaraq, ruslarla qazaxlar arasında hər hansı bir razılıq

---

[39]Togan Z.V. Bugünkü Türk İli (Türkistan) Ve Yakın Tarihi / Z.V.Togan. − İstanbul, Enderun yayınları, − 1981. − s. 174.

[40]Grousset R. Bozkır İmparatorluğu Atilla-Cengiz Han-Timur / R. Grousset. − Çeviren: M.R.Uzmen, − İstanbul: Ötüken neşriyat. – s. 493; Yorulmaz O. Kalmukların İdil Boyundan Cungaryaya dönüşleri // Prof. Dr. Erdoğan Merçile Armağan, Editörler: Emine Uyumaz, Muharrem Kesik, Aydın Usta, Cihan Piyadeoğlu, − İstanbul: Bilge kültür sanat yayınları, − 2013. − s. 357-360.

[41]Togan Z.V. Bugünkü Türk İli (Türkistan) ve Yakın Tarihi / Z.V.Togan. − İstanbul, Enderun yayınları, − 1981. − s. 176.

və danışıqlar zamanı qazanılmış müvəffəqiyyət yox idi.[42] XVII əsrdə ruslarla qazaxlar arasına yerləşən kalmıklar səbəbi ilə qazax-rus əlaqələri dayandı.

Çar I Pyotr (1682-1725) qazaxlarla sıx siyasi əlaqələrə başladı. Bu dövrdə Sibir qubernatoru M.P.Qaqarinin idarə etdiyi rus-qazax siyasi əlaqələri nəticəsində çox dəfə qazaxların rus hakimiyyətinə qəbulu mövzusu müzakirə edilməsinə baxmayaraq, rusların hələ güclü olan cunqarlarla müharibə etmək istəməməsi səbəbi ilə nəticəsiz qaldı.[43] Qazaxlar bu dövrdə cunqarların hərbi-siyasi təzyiqi altında idilər.

I Pyotr 1723-cü il Xəzər yürüşündən qayıdarkən, Həştərxanda əhəmiyyətli dövlət xadimi A.İ.Tevkelev ilə görüşdü. Çar görüş zamanı qazaxlar haqqında danışdı və onların şərtsiz Rusiyanın hakimiyyəti altına alınmasının lazım olduğunu qeyd etdi. Çara görə, bu məqsəd üçün 1 milyon rubla qədər pul xərclənməli idi.[44] Çar görüş zamanı qazax torpaqları üçün ilk dəfə "Şərqin qapısı" ifadəsindən istifadə etdi. I Pyotrun belə siyasət ortaya qoymasına 1698-ci ildəki Avropa səyahəti nəticəsində öz dövlətinin müstəmləkəçi Avropa dövlətləri ilə mübarizə apara bilməyəcəyini başa düşməsi və 1711-ci ildə Prut müharibəsində Osmanlı imperiyasına məğlub olub, qoşununun hələ onları məğlub edə biləcək qüvvədə olmaması təsir etdi.

Ruslar qazaxların rus hakimiyyətini qəbul etməsindən əvvəl həm işğal etdiyi torpaqlara yiyələnmək, həm də qazaxlar ilə iqtisadi-siyasi əlaqə yaratmaq üçün şəhərlər saldılar.[45]

Dissertasiya işinin II fəsli **"Qazax juzları və onların rus işğalı**

---

[42] Левшин А.И. Описание киргиз – казачьих, или киргиз – кайсацких орд и степей / А.И. Левшин. − Алматы: Санат, − 1996. − с. 157.

[43]Öteniyaz S. Kayıp Han ile I. Petro Arasındaki Münasebetler // – Konya: Selçuk Üniversitesi Dergisi, – 2004. − Tərcümə edən: Orhan Doğan, − № 16-17-18, − s. 300.; Левшин А.И. Описание киргиз – казачьих, или киргиз – кайсацких орд и степей / А.И.Левшин. − Алматы: Санат, − 1996. − с. 166.

[44] Ханыков, Я.В. Разные бумаги Генерал-Майора Тевкелева об Оренбургском крае и о киргиз-кайсацких ордах 1762 год. // Временник императорского общества истории и древностей российских [25 Книги]. − Москва: В Университетской типографии, − Кн. 13-Часть 3, − 1852. − с. 16.

[45]Olcott M.B. The Kazakhs / M.B.Olcott. − Stanford: Hoover İnstutions Press, − 1995, − p. 28-30.

**altına alınması"** əsas başlığında mərkəzçi Qazax xanlığının son dövrünü, juzların bir-birindən ayrılması, Bukey Ordası (Daxili Orda), Rusiyanın juzları işğalı və inzibati – idarəçilik tənzimlərini əhatə edir.

II fəslin I yarımfəsli **"Juzların siyasi fəaliyyəti"** adlanır. Yarımfəsildə Teuke xanın siyasi, ictimai və hüquqi tənzimləmələri, 1723-cü ildə cunqar hücumu ilə dağılan qazaxların yalnız qoşunlarını birləşdirib, siyasi cəhətdən birləşə bilməməsi, juzların rus hakimiyyətini qəbulu və onların ayrı-ayrılıqda rus işğalına məruz qalmalarına qədər tarixləri qeyd edilmişdir.

Qazax xanı Teuke xan juzlar və tayfalar arasındakı nizamı təmin etmək üçün Kul-Töbedə (Sırdərya ərazilərində) yeddi əhəmiyyətli biy (bəy) ilə qurultay çağırdı. Biylər qurultay nəticəsində əski ənənələri birləşdirərək, Yeddi qanunu (Jeti-Jargı – Yeddi əsas) ortaya qoydular.[46] Teuke xanın belə bir addım atmasının səbəbi həm şərqdə cunqarlar, həm də cənubdakı özbək xanlıqları ilə mübarizələrin davam etməsi idi. Bu vəziyyətə əlavə olaraq, xalq arasındakı qan davası kimi münaqişələri dayandırıb, daxildə sakitliyi təmin etmək idi. Teuke xan mərkəzçi Qazax dövlətini qorumaq üçün Çingiz nəslindən olan törelər və xüsusi mövqeləri olan mollaların xalq daxilindəki hüquqi vəziyyətlərini dəyişdirməyə cəhd edirdi.[47] Yeddi qanunda yalnız hüquq qaydalarının cəmlənməsi deyil, köçəri qazax xalqının xüsusiyyətlərinin tənzim edildiyi dövrün ictimai və siyasi hadisələri öz əksini tapırdı.

1715-ci ildə Teuke xanın yerinə Qayib Məhəmməd seçildi. Qayib Məhəmməd daxili mübarizələri dayandırmaq istiqamətində fəaliyyət aparırdı. Qayib Məhəmməd xan 1718-ci ildə öldü və onun yerinə Teuke xanın oğlu Polad Qazax xanı seçildi.

1730-cu ildə Qazax xanı Poladdan sonra yeni xanı seçmək üçün cəmlənən qurultayda fikir birliyi olmadı. Nəticədə, bütün xanlıq iddiasında olanlar öz ərazilərində müstəqillik elan etdilər. Əbülxeyr xan xanlıq iddiası olanlardan biri idi və öz hakimiyyət ərazisi olan

---

[46]Klyashtorny, S.G. Kazakistan Türkün Üç Bin Yılı / S.G.Klyashtorny, T.İ.Sultanov. − İstanbul: Selenge yayınları, − Tərcümə edən: D.Ahsen Batur, − 2004. − s. 322-325.
[47]Doğan O. Tavke Han Dönemi (1680 – 1718) Kazak Hanlığı ve Tavke Han Yasaları (Jetı Jargı) // – Bişkek: Manas Universiteti Koomduk İlimder Jurnalı (Manas Üniversitesi Sosyal Bilimler Dergisi), − 2002. – № 3, − s. 61.

Kiçik juzda müstəqillik elan etdi, fəqət onun xanlığını qəbul edənlərin sayı az idi. Bu səbəblə Əbülxeyr xan çar Rusiyası kimi güclü müttəfiq taparaq, nüfuzunu artırmağa çalışırdı. Nəticede Əbülxeyr 1731-ci ildə rus hakimiyyətinə qəbul edildi.

1748-ci ildə qətl edilən Əbülxeyr xandan sonra yerinə oğlu Nurəli Kiçik juz xanı seçildi. Nurəli xan juzu qazax xanı kimi deyil, rus məmuru kimi idarə etdi. Nurəli Qazax xanı seçilməsinə baxmayaraq, Rusiya tərəfindən xan kimi təsdiq edilmədən xan titulundan istifadə etmədi.[48] Nurəli xanın hakimiyyətini bütün juz xalqı qəbul etmirdi. Bu səbəblə, Kiçik juz daxilində sakitlik təmin edilə bilmədi. Sakitliyin olmadığı Kiçik juzda Rusiya tərəfindən 1786-cı ildə xanlıq ləğv edilərək, idarəçilik yaradılan Orenburq Sərhəd məhkəməsinə verildi. Sərhəd məhkəməsinə qarşı xanlıq üsul-idarəçiliyi tərəfdarlarının fəaliyyətləri nəticəsində 1790-cı ildə xanlıq üsul-idarəçiliyi yenidən yaradıldı.

1790-cı ildə ölen Nurəli xandan sonra Erəli xan, İşim xan, Ayçuvak xan, Cantöre xan və Şirqazı xan Kiçik juzda hakimiyyətə gəldilər.

1801-ci ildə Kiçik juz soltanları arasındakı daxili mübarizələrdən azad olmaq istəyən Bukey soltan Rusiyadan icazə alaraq, İdil-Yayıq arası ərazilərə köç etdi. Rusiya Bukey soltanın xan titulu tələbini Kiçik juzun parçalanması nəticəsini ortaya çıxaracaq olmasına baxmayaraq, həmən təsdiq etmədi. Lakin qazax ailələrinin İdil-Yayıq arası əraziyə köç etməsinə də mane olmadı. Bukey Ordası qazax ailələrinin köçü ilə 1801-ci ildə yaranmasına baxmayaraq, tabe olduqları Rusiya tərəfindən rəsmi xan təyin edilməsi və xanlıq titulunun təsdiqi 1812-ci ildə oldu.[49] Yarandığı gündən Rusiyanın hakimiyyətində olan Bukey Ordası 1847-ci ildə Bukey xanın oğlu Jangir xanın ölümü ilə ləğv edildi və Həştərxan qubernatorluğuna tabe edildi.

---

[48]Yorulmaz O. Başlanğıcından Hanlığın Feshine Kadar Kazak Türkleri ile Çarlık Rusyası Arasındaki Siyasi İlişkiler / O. Yorulmaz. − Ankara: Türk Tarih Kurumu yayınları, − 2013. − s. 186.

[49]Mehdiyeva N.C. Bukey Ordası // – Bakı: Tarix və onun problemləri, – 2012. − № 1, − s. 12.; Аспандияров Б. Образование Букеевской орды и её ликвидация / Б.Аспандияров. − Алматы: Казак энциклопедиясы, − 2007. − с. 47.

Çar Rusiyası 1824-ci il Orenburq qırğızları (qazaxları) nizamnaməsi ilə Kiçik juzda xanlıq üsul-idarəçiliyini ləğv etdi və xanlıq seçimlərini qadağan etdi. Beləcə, Kiçik juzun Rusiya tərəfindən işğalı dövrü nəticələnməklə bərabər juz torpaqlarına yiyələnmə və idarəçilik nizamları dövrü başlandı.

Qazax torpaqlarının mərkəzi və şərqi qisimlərini əhatə edən Orta juzda juzların bir-birindən ayrıldığı 1730-cu ildə Səməkə xan hakimiyyətdə idi. 1734-cü ildə Səməkə xanın yerinə Əbülmambet xan seçildi. Orta juzun üzərində rus hakimiyyətinin bərqərar olması xan və bəzi adamların 1740-cı ildə Orenburqa dəvət edilərək, Rusiyaya sədaqət andı içmələri ilə rəsmiləşdi.[50] 1771-ci ildə Əbülmambetin yerinə bütün qazax juzlarının nümayəndələrinin daxil olduğu qurultayın qərarı ilə Ablay seçildi.

Ablay xan 1758-ci ildə Cunqar xanlığının Çin tərəfindən işğalı ilə Rusiya və Çin arasında qalan qazaxların azadlığı üçün mübarizə apardı. Üstəlik Ablay qazax azadlığının simvolu oldu.

1781-ci ildə Ablay xanın yerinə oğlu Vəli xan seçildi. Vəli xan atasının yaratdığı nizamı qoruyub saxlaya bilmədi. Beləcə, Orta juzda daxili böhran dövrü başlandı. 1816-cı ildə Vəli xanın düşməni Bukey soltan xan elan edildi. Beləcə, juz ikiyə bölündü, fəqət azad idarəçilərin sayı beş idi.[51] Orta juzdakı hakimiyyət mübarizəsinin davam etdiyi bu dövrdə 1817-ci ildə Bukey xan, 1819-cu ildə Vəli xan öldü.[52] Vəli xanın ölümü ilə Orta juzda xanlıq seçilməsi qadağan edildi. 1822-ci ildə də Orta juzda xanlıq ləğv edildi.

Qazax torpaqlarının cənub-şərq ərazilərini əhatə edən Böyük juzun idarəçilik mərkəzi Təvəkkül xanın 1598-ci ildə Daşkəndi ələ

---

[50]История Казахской ССР с древнейших времен до наших дней / От. Ред. И.Димитрова, − Алматы: АН Каз., − 2011. − с. 248.

[51]Devrişeva, H. Kazakların Milli Direnişi (XVII-XX. yy) // Prof. Dr. Eşref Buharalıya Armağan-Türk Tarihine Dair Yazılar-II. − Ankara: Gece kitaplığı, − Editörler: Alpaslan Demir, Tuba Kalkan, Eralp Erdoğan, − 2017. − s. 85; Yorulmaz O. Başlanğıcından Hanlığın Feshine Kadar Kazak Türkleri ile Çarlık Rusyası Arasındaki Siyasi İlişkiler / O. Yorulmaz. − Ankara: Türk Tarih Kurumu yayınları, − 2013. − s. 266/

[52]Yorulmaz O. Başlanğıcından Hanlığın Feshine Kadar Kazak Türkleri ile Çarlık Rusyası Arasındaki Siyasi İlişkiler / O. Yorulmaz. − Ankara: Türk Tarih Kurumu yayınları, − 2013. − s. 266.

keçirməsi ilə bərabər, Daşkəndə köçürüldü.[53]

1616-cı il qazax-kalmık müharibəsindən sonra XVIII əsrə qədər mənbələrdə haqqında məlumat olmayan Böyük juzda xan olaraq təkcə Jolbars xanın (1720-1739) adı bilinir.

Orta juz xanı Ablay (1771-1781) Böyük juzu öz hakimiyyəti altına aldı. Fəqət, Ablayın 1781-ci ildə ölümü ilə Böyük juz qazaxları yeni siyasi qüvvə axtarışına başladılar. Beləcə, Böyük juzda Yunis Xocanın hakimiyyəti başladı. 1784-cü ildə Daşkənd hakimlərindən olan Yunis Xoca öz xanlığını elan etdi. Yunis Xoca, Daşkənd xalqına qarşı soyğunçu hərəkətlər edən Böyük juz qazaxları ilə mübarizə apardı, fəqət onları tamamən öz hakimiyyətini qəbul etdirməyə müvəffəq olmadı. Bu dövrdə Böyük juz qazaxlarının çoxu Orta juz torpaqlarına köç etdi. Kokand xanı Alim xana məğlub olan Yunis Xocanın Böyük juz üzərindəki təsiri azaldı. Yunis Xocanın ölümü ilə yerinə oğlu Soltan Xoca Daşkənd xanı oldu. Soltan Xocanın dövründə Daşkənd bütünlüklə Kokand xanlığına bağlandı.[54]

Çinin qazax torpaqlarına hücum etməsinə baxmayaraq onların adlı-sanlı adamları adamları Çinə məyl edirdi. Onlar Çinin rus işğalına maneə olacağını fikirləşirdi.[55] Böyük juz üzərində yeni qüvvə olan Kokand xanlığı 1814-cü ildə bütün juza hakim oldu. Kokandlıların hərbi istehkamlar tikdiyi Böyük juzda qazaxlarla kokandlılar arasında meydana gələn vergi anlaşmazlığı səbəbi ilə qazaxların bir qismi Çinə köç etdi. Böyük juzun şimal ərazilərində hakimiyyətdə olan Ablay xan nəslindən Süyük soltan müstəqilliyini qorudu. Süyük soltanın müstəqilliyi və Çinə köç edən qazaxlar səbəbi ilə Kokand hakimiyyətini qəbul edən qazax əhali azaldı. Böyük juzda hakimiyyətdə olan bir başqa soltan olan Tuqum 100 yurdluq əhalisi ilə 1794-cü ildən Rusiyanın hakimiyyətini qəbul etmişdi. Kokanddan asılı olmayan Süyük soltan 1819-cu ildə Rusiyanın hakimiyyətini

---

[53]Yorulmaz O. Başlangıcından Hanlığın Feshine Kadar Kazak Türkleri ile Çarlık Rusyası Arasındaki Siyasi İlişkiler / O. Yorulmaz. − Ankara: Türk Tarih Kurumu yayınları, − 2013. − s. 15.

[54]Muhammedcanov, A. Taşkent // İslam Ansiklopedisi [44 cilddə]. − İstanbul: Türkiye Diyanet Vakfı yayınları, − C. XL, − 2011. − s. 147.

[55]Mehdiyeva, N.C. Türk xalqlarının tarixi – Yeni dövr / XIX – XX əsrin əvvəlləri/ Ali məktəblər üçün dərslik / N.C.Mehdiyeva. − Bakı: Adiloğlu, − 2010. – s. 27.

qəbul etdi.[56]

Çar Rusiyası 1822-ci ildə Orta juzu, 1824-cü ildə isə Kiçik juzu işğal etdi və Böyük juzda qalalar tikməyə başladı. 1846-cı ildə Vernı (Almatı) qalasının tikilməsi ilə Böyük juz da çar Rusiyasının torpağı oldu.

II fəslin II yarımfəsli **“Juzların çar Rusiyasının hakimiyyətini qəbul etməsi”** adlanır. Yarımfəsildə çar I Pyotr ilə başlayan sıx qazax-rus əlaqələri və bu əlaqələr nəticəsində, başda Kiçik juz xanı Əbülxeyr xan olmaqla qazax xanlarının rus hakimiyyətini qəbul etməsi və onların məqsədləri qeyd edilmişdir.

Qazaxların rus hakimiyyətinə qəbul edilməsi məsələsində tədqiqatçıların görüşləri, ümumiyyətlə, iki qismə ayrılır. Bunlardan birincisi: qazaxların çar Rusiyasının hakimiyyətini “könüllü” qəbul etdikləri fikridir.[57] İkincisi, juz xanları bir-birinə qarşı xarici müttəfiq tapmaq üçün xalqdan gizli rus hakimiyyəti ilə razılaşaraq, xalq nümayəndələrini də buna məcbur etdilər.[58]

1730-cü ildə aparılan danışıqlar nəticəsində 1731-ci ildə Əbülxeyr xan rus hakimiyyətinə qəbul edildi. Əbülxeyr xan ilə bərabər Qaraqalpaq xanı Qayip və Orta juz xanı Səməkə rus hakimiyyətini qəbul etdilər. Rus elçisi A.İ.Tevkelev Əbülxeyr xan və Rusiyaya sədaqət andı içən digər qazax nümayəndələrinə: rus ticarət karvanlarını qoruma, xəz ilə yasaq vergisi vermə, amanat (girov) vermə, rus xalqı ilə sülh daxilində yaşama və rus qanunlarını qəbul etmə vəzifə və şərtlərini qəbul etdirdi.[59]

Qazaxların rus hakimiyyətini qəbulu juz xanlarının şəxsi ambisiyaları ilə başlandı. Xalq və xalq nümayəndələrinin belə bir

---

[56]Левшин, А. И. Описание Киргиз-Казачьих, или Киргиз-Кайсацких, орд и степей / А.И.Левшин. − Алматы: Санат, − 1996. – с. 177.

[57]Yerofeeva, İ. Rus İmparatorluğu Yönetiminde Kazakistan // Kazakistan Tarihi Makaleleri, − Ankara: Türk Tarih Kurumu yayınları, − 2007. − s. 75; Добросмысловь, А.И. Тургайская область (Исторический очеркь) / А.И.Добросмысловь. − Оренбургб: Типолитография Ф.Б. Сачнова, − 1900. − с. 6.

[58]Əhmədov, R.V. Türk xalqlarının tarixi (XIII – XX əsrin əvvəlləri) / R.V.Əhmədov. − Sumqayıt: − 2013. – s. 60; Saray M. Yeni Türk Cumhuriyetleri Tarihi / M. Saray. − Ankara: Türk Tarih Kurumu yayınları, − 2014. − s. 99.

[59]Добросмысловь А.И. Тургайская область (Исторический очеркь) / А.И. Добросмысловь. − Оренбург: Типолитография Ф.Б. Сачнова, − 1900. − с. 7.

tələbi yox idi.

II fəslin III yarımfəslinin başlığı **“Çar Rusiyasının juzları işğalı, onların inzibati-idarəçilik tənzimi və işğalın nəticələri”**-dir. Yarımfəsildə Rusiyanın 1822-ci ildə Orta juzda, 1824-cü ildə Kiçik juzda xanlıq üsul-idarəçiliyinin ləğv etməsi, qazax torpaqlarında tətbiq edilən idarəçilik nizamları və işğalın nəticələri qeyd edilir.

Sibir general-qubernatoru M.M.Speranski tərəfindən hazırlanan “Sibir qırğızları (qazaxları) nizamnaməsi” ilə Orta juzun yeni idarəçilik nizamı müəyyənləşdirildi. Sibir qırğızları nizamnaməsinə görə, Sibir qərb və şərq olmaq üzrə iki qismə ayrıldı. Tobolsk, Tomsk və Omsk vilayətləri yaradıldı. Orta juz Omsk vilayətinə bağlanaraq, daxili və xarici dairə, qəza və aullara bölündü. Orta juz başda Tobolskdan idarə edilirdi, 1839-cu ildə isə Omska tabe edildi.[60]

Qərbi qazax torpaqları olan Kiçik juzda xanlığın ləğv edilməsi ilə qurulan yeni idarəçilik nizamı Orta juzdan fərqli idi. 1822-ci ildə Orenburq qubernatoru P.K.Essenin hazırladığı “Orenburq qırğızları (qazaxları) nizamnaməsi” 1824-cü ildə çar I Aleksandr tərəfindən təsdiq edildi. Nizamnaməyə görə, Kiçik juz üç yerə bölündü. Bölünən ərazilərin idarəçiliyinə soltanlar təyin edildi. Kiçik juzun qərb ərazilərinə Qaratay, mərkəzi ərazilərinə Temir və şərq ərazilərinə Juma soltanlar təyin edildi.[61] Təyin edilən soltanların səlahiyyətləri azaldıldı və onlar çar Rusiyanın məmurları oldular. Bütün ərazilər üzərindəki səlahiyyətlər Orenburq Sərhəd Komissiyasına təhvil verildi. Orenburq Sərhəd Komissiyası bir rəhbər, dörd məsləhətçi və zəngin qazaxlardan seçilən dörd mütəxəssisdən yarandı.

Nəticə olaraq Qazaxıstanın qərbi əraziləri Orenbuq qubernatorluğuna; mərkəzi, şərqi və Böyük juzun şimal əraziləri Qərbi Sibir qubernatorluğuna və cənub ərazilər isə 1867-ci ildə yaradılan Türküstan qubernatorluğuna bağlandı.

**“Juzlardakı milli-azadlıq hərəkatları”** əsas başlıqlı III fəsildə rusların qazax torpaqlarında tətbiq etdiyi müstəmləkəçilik siyasəti

---

[60]Артыкбаев Ж.О. Казахское общество в XIX веке: Традиции и инновации / Ж. О. Артыкбаев. − Караганда: Полиграфия, − 1993. − с. 101.

[61]Kara G. 19. Yüzyılda Çarlık Rusyası’nın Kazak Jüzlerinde Gerçekleştirdiği İdarî Reformlar ve Neticeleri // – Isparta: Genel Türk Tarihi Araştırmaları, – 2021. № 6, – s. 378.

nəticəsində yaranan qazaxların milli-azadlıq hərəkatları qeyd edilmişdir.

III fəslin I yarımfəsli, **“Qərbi Qazaxıstanda milli-azadlıq hərəkatları”** adlanır. Yarımfəsildə xronoloji olaraq qazaxların rus kazaklarının üsyanı olan Y.Puqaçov üsyanına daxil olmaları, Görünməz adam, Sırım (Datov) batır, Qaratay soltan, Arınqazı, Joloman Tilençiyev, Qayip-Qali, İsatay Taymanov və Muhambet Utemisovun milli-azadlıq hərəkatları qeyd edilmişdir.

Qərbi Qazaxıstanda milli-azadlıq hərəkatlarının müəyyən edilmiş planlarının olmaması səbəbi vüsət almadı. Ümumiyyətlə, hərəkat başçılarının Qazax dövlətini yenidən qurma kimi fikirləri yox idi.[62] Bu vəziyyətə baxmayaraq, Qərbi Qazaxıstandakı hərəkatların rus müstəmləkəçiliyinə qarşı milli-azadlıq hərəkatı xarakteri daşıdığını qeyd edə bilərik.

Son fəslin II yarımfəslinin başlığı **“Kenesar Qasımov hərəkatı”**-dır. Yarımfəsildə Ablay xan nəslindən Orta juz soltanlarının milli-azadlıq hərəkatları qeyd edilir. Orta juzdakı milli-azadlıq hərəkatı 1822-ci il Sibir qırğızları nizamnaməsinin tətbiq edilməsinin yaratdığı narazılıq səbəbi ilə 1825-ci ildə Sarjan Qasımovun başçılığı altında başlandı. S.Qasımov Qazax xanlığını yenidən yaratmaq üçün milli-azadlıq hərəkatına başladı. Fəqət o çar Rusiyasının güclü qoşununa məğlub oldu. Buna baxmayaraq, 1835-ci ilədək hərəkat davam etdi.

Orta juzda milli-azadlıq hərəkatını S.Qasımovun qardaşı Kenesar Qasımov davam etdirdi. 1837-1847-ci illərdə milli-azadlıq hərəkatına başçılıq edən K.Qasımov Qazax dövlətini yaratmaq üçün fəaliyyət aparırdı. K.Qasımov 1841-ci ildə Qazax xanı seçildi. Sonuncu Qazax xanı olan K.Qasımov 10 il rusları dayandırdı. Fəqət qohum xalq olan qırğızlarla müharibəsi onun məğlubiyyətinə səbəb oldu.[63]

Qərbi Qazaxıstanda milli-azadlıq hərəkatları ilə müqayisədə müəyyən planı olan K.Qasımovun milli-azadlıq hərəkatı bütün qazax

[62]Kara, F. Rus Kolonizasyonuna Karşı Kazak Mukavemeti / F.Kara, Y.Haykır // − Ankara: Turkish Studies-İnternational Periodical For The Languages, Literature And History of Turkish or Turkic, − 2014. Vol. 9/4, − s. 628.

[63] Ünal F. Sultan Kenesarı – Rus Emperyalizmine Karşı Stepte Büyük Başkaldırı / F. Ünal, − İstanbul: İlgi kültür sanat yayıncılık, − 2010. − s. 238.

xalqını bu mübarizəyə cəlb etməyə çalışdı. Milli-azadlıq hərəkatı Qazax dövlətini yenidən yaratma yolunda davam etdi. K.Qasımov Böyük juz qazaxları və qırğızların ondan üz çevirməsi ilə məğlub olub, qətl edildi. Kenesardan sonra qazaxlar arasında bütün xalqı cəmləyə bilən milli-azadlıq hərəkatı lideri olmadı.

Böyük qazax maarifçisi Abay Kunanbayev qazax xalqının tarixində Kenesarın azadlıq mübarizəsinin mütərəqqi rolu və əhəmiyyətini göstərərək yazırdı ki, Kenesar qazax xalqının qəhrəmanıdır.[64] Fransız yazıçısı Jül Vern də Kenesar Qasımovun taleyindən yan keçməmişdir. Yazıçının K.Qasımov haqqında romanının əlyazma nüsxəsinin Leninqrad (hazırkı Sankt – Peterburq) arxivində saxlanması bunu sübut edir.[65]

Dissertasiyanın **"Nəticə"** hissəsində aparılan araşdırmaya yekun vurulmuş, tədqqatın əsas müddəaları ümumiləşdirilmiş və əldə edilən nəticələr təhlil edilmişdir.

[64]История Казахской ССР с древнейших времен до наших дней / От. Ред. И.Димитрова, − Алматы: АН Каз., − 2011. − с. 361.

[65]Mehdiyeva, N.C. XIX əsrin birinci yarısında qazax xalqının milli – azadlıq hərəkatı // «Türk dünyası: dünəni və bu günü», 23 – 24 may. Beynəlxalq elmi konfransın materialları. I c. – Bakı: VİKTORİ, − 2012, − s. 109.

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı məqalələr, tezislər və konfrans materialı nəşr olunmuşdur:**

1. Ablay xan // – Bakı: Tarix və onun problemləri, – 2019. – № 4, – s. 69-76.
2. XVIII. yüzyılda Kazak-Kalmuk mücadeleleri // – Isparta: Genel Türk tarihi araştırmaları dergisi, – 2020. – № 3, – s. 77-86.
3. İdil Kalmıklarının Türk xalqları və Rusiya ilə əlaqələri // – Bakı: Tarix, insan və cəmiyyət - Elmi-nəzəri və elmi-metodik jurnal, – 2020. – № 2 (29), – s. 62-72.
4. Political situation and independence movements in Smallest Horde Kazakh Khanate (1790-1824) // – Київ: Гілея: науковий вісник. – К. : «Видавництво «Гілея», 2020. – Вип. 159 (№ 11-12). – Ч. 1. Історичні науки, – с. 72-77.
5. Rusiyanın şərq siyasətinin yaranması və qazaxlara təsiri // – Bakı: Tarix və onun problemləri, – 2021. – № 2, – s. 49 – 53.
6. Küçük ve Orta Cüz Kazak hanlıklarında Rus hakimiyetinin kurulması // – İstanbul: Pearson journal of social sciences & humanities, – 2021. – Volume 6, Issue 16, – s. 354-364.
7. Rus işgaline kadar Büyük Cüz Kazaklarının siyasi durumu // – İstanbul: Euroasia journal of social sciences & humanities, – 2022. –Volume: 9, Issue: 27, – s. 13-18
8. Küçük Cüz Kazak Hanı Ebulhayr Han'ın hakimiyet çabası // Taras Shevchenko 6th international conference on social sciences, – Kyiv: 2021. – p. 483-490.
9. Kazak-Kalmuk ilişkilerinin tarihi seyri // 3. Uluslararası Dede Korkut Türk kültürü, tarihi ve edebiyatı kongresi, – Bakü: 2020. – s. 90 - 92.
10. Orta cüz kazak hanlığı - çarlık Rusyası ilişkileri (1730-1822) // 1st International Hazar scientific research conference, – Bakü: 2020. – s. 665 – 666.

Dissertasiyanın müdafiəsi "15" Noyabr 2023-ci il tarixində saat 14.00 Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Bakı, Zahid Xəlilov küçəsi, 23

Dissertasiya ilə Bakı Dövlət Universiteti kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universiteti rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11.10.23 il tarixində zəruri ünvanlara göndərilmişdir.

Dissertasiyanın müdafiəsi ”____”___________ 2023-ci il tarixində saat ____ Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Bakı, Zahid Xəlilov küçəsi, 23

Dissertasiya ilə Bakı Dövlət Universiteti kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universiteti rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat _______ il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.09.2023

Kağızın formatı: A5

Həcm: 47567

Tiraj:100